"Sünnə" tədris mərkəzi D.Heysəm Sərhanın nəzarəti altında

# Zil-Hiccə ayının ilk on gününün əhkamları

## Zil-Hiccə ayının ilk on günü ən fəzilətli günlərdir

Çünki bu günlər:
-Tərviyə günü (8-ci gün)
-Arafa günü (9-cu gün) Bu gün dayanma günüdür.
-Qurban günü (10-cu gün). Bu gün bayram günüdür

Çünki Allah bu günlərə and içmişdir. Uca Allah buyurur: (And olsun on gecəyə!)
İbn Abbas buyurur: "Bunun mənası on gündüz deməkdir." Hakim rəvayət edib. Bu əksər təfsir alimlərinin sözüdür.

أخرجه بعض أصحاب «السُّنن». .
Çünki Peyğəmbər buyurur: "Bu günlərdən (on gündən) başqa elə bir gün yoxdur ki, bu günlərdə edilən saleh əməllərdən Allaha daha sevimli olsun." Hədisi sünən kitablarında rəvayət ediblər.

Abu Osman ən-Nəhdi (Allah ona rəhmət eləsin) buyurur: "Alimlər üç ayrı on günü əfzəl görərdilər: Zil-Hiccənin ilk on gününü, Ramazanın son on gününü və Məhərrəmin ilk on gününü." Bu rəvayəti əl-Əsbahani "tərğib və tərhib" əsərində gətirib.

İbn Useymin (Allah ona rəhmət eləsin) buyurub: "Elm tələbələri bu on günün fəzilətləri haqqında insanlar arasında maarifləndirmə işi aparmalıdırlar. Çünki insanlar bundan xəbərsizdirlər və bunun fəzilətini bilmirlər."

## Zilhiccə ayının ilk on günündə ümumi olaraq çoxlu yaxşı əməllər etmək buyurulmuşdur.

Xüsusi olaraq isə:

### 1- Onuncu gündən başqa o biri günləri oruc tutmaq:

Allah Elçisi Zil-Hiccənin ilk doqquz gününü, aşura gününü, hər aydan üç günü və hər ayın ilk birinci və dördüncü gününü oruc tutardı. (Abu Davud)
Arafa gününün orucuna digətlərindən daha xüsusi diqqət göstərilməlidir.

Peyğəmbər ﷺ buyurur: "Arafa gününün orucu Allahdan istəyirəm ki, bir il keçmiş, bir il də gələcək günahlara kəffarə olsun"(Muslim)

### 2- Həcc və ümrə etmək.

Peyğəmbər buyurur: İslam beş sütun üzərində bina edilib: "Lə iləhə illəllah Muhəmmədən rasulullah" olan şəhadət kəliməsi, namaz qılmaq, zəkat vermək, həcc etmək və ramazan orucu tutmaq. (Buxari və Muslim)
Peyğəmbər buyurur: Qəbul olunan həccin mükafatı yalnız cənnətdir. (Buxari və Muslim)

### 3-Qurban kəsmək

Peyğəmbər buyurur: Kim bacardığı halda qurban kəsməzsə bizim namazgahımıza yaxınlaşmasın. (İbn Macəh və Əhməd)
Peyğəmbər buyurur: Sizdən » biriniz qurban kəsmək istəyirsə zilhiccə ayı daxil olduqdan sonra saçından və dırnağından götürməsin»
Yəni qurbanı kəsənə kimi. (Muslim)

### 4-Xeyir qapılarına xərcləmək

Peyğəmbər buyurur: "Bu günlərdən (on gündən) başqa elə bir gün yoxdur ki, bu günlərdə edilən saleh əməllərdən Allaha daha sevimli olsun. Dedilər ki: Ey Allahın elçisi, Allah yolunda cihaddan da? Allahın elçisi dedi: Allah yolunda cihaddan da. Yalnız o kəsin əməli istisnadır ki, o, malı və canı ilə cihada getsin, heç biri ilə geri dönməsin.
Hədisi sünən kitablarında rəvayət ediblər.

### 5-Allahı zikr etmək

Çoxlu təhlil (Lə iləhə illəllah), təkbir (Allahu əkbər), təhmid (əlhəmdulilləh) demək, Quran oxumaq və s.
Peyğəmbər buyurur: Bu günlərdə çoxlu təhlil, təkbir və təhmid gətirin. (Əhməd)
Peyğəmbər buyurur: Ən xeyirli dua arafa günü edilən duadır. Mənim və məndən qabaqkı peyğəmbərlərin dediyi ən xeyirli söz isə budur; Lə iləhə illəllahu vəhdahu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. (Tirmizi)

## Kəsim üçün vacib olan əmillərdən:

**1- Həcc qurbanı:**
Təməttu və qiran həcci edənlərə qurban kəsmək vacibdir, digərləri üçün isə qurban kəsmək müstəhəbdir. Zəvvarın kəsdiyi qurbandan yeməsi və hərəm yoxsullarına sədəqə verməsi caizdir.

**2-Qurbanlıq:**
Bu, hər bir müsəlman üçün təkid olunmuş sünnədir və bunu bacaran müsəlman onu tərk etməməlidir. Peyğəmbər buyurur: Kim bacardığı halda qurban kəsməzsə bizim namazgahımıza yaxınlaşmasın. (İbn Macəh və Əhməd)

**3-Əqiq qurbanı**
Bu, hər bir ata və ya onu əvəz edən üçün təkid olunmuş sünnədir. O hər bir ruh üfürülən uşağın adından (ölü doğulsa belə) kəsilir.
Bu da ya:

- a) Oğlan övladının adından iki quzu
- b) Qız övladının adından bir quzu

## Həcc qurbanı, qurbanlıq və əqiq üçün şərtdir ki:

**1- Qurbanlıq davar heyvanlar-dan olmalıdır.**
Onlar da: Dəvə, inək, qoyun və keçidir.

**2- Kəsilən heyvan şəriətin təyin etdiyi yaşa çatmalıdır:**
Bu yalnız bu hallarda keçərlidir:

- a) Qoyun “Cəzəə” olmalıdır
  Bu da altı ayı tamam olan quzudur.
- b) Digərləri “Səniy” olmalıdır.
  Bu da:
  Dəvədə 5 il
  İnəkdə 2 il
  Keçidə 1 il
  olmalıdır

**3-Keçərli olmasına mane olan səbəblərdən salamat olmalıdır:**
Peyğəmbərdən rəvayət nəql olunub, O buyurur: “Qurbanlıqda dörd qüsur caiz deyil:

- a) Bir gözünün korluğu açıq bilinən
- b) Xəstəli-yi açıq bilinən
- c) Axsaq-lığı açıq bilinən
- d) Həd-din-dən artıq qoca

O, gözəl vəsfdə olmalıdır. Nə qədər kamil olsa, Allah yanında bir o qədər sevimli, sahibinin mükafatı da bir o qədər çox olar.
Cabir (Allah ondan razı olsun) deyir: “Hüdeybiyyə ilində Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə bir dəvəni yeddi kəsin adından, bir inəyi də yeddi kəsin adından qurban kəsdik”. (Müslim)

## Yeni doğulan uşaq üçün 7-ci günü bunlar edilməlidir

**1- Əqiq qurbanı kəsmək:**
Əgər şənbə günü doğulubsa, cümə günü, yəni doğum günündən bir gün əvvəl kəsilir.

Əgər yeddinci gün keçibsə: onda on dördüncü gün.
O da keçibsə: iyirmi birinci gün.

**2- Uşağa ad qoymaq:**
Əgər ad əvvəlcədən hazırlanmayıb-sa.

**3- Saçını qırxmaq:**
Bu oğlan uşağına aiddir.

**4-Sədəqə vermək**
Saçın çəkisi qədər gümüşü-dən sədəqə vermək.